Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# MAARİF FƏDAİLƏRİMİZ -

# QAFUR RƏŞAD MİRZƏZADƏ

## 1894-1943

XIX əsrin ortaları və XX əsrin əvvəlləri Azərbaycan tarixində maariflənmə dövrü kimi qiymətləndirilir. Bu dövrdə Azərbaycanda məktəblərin açılması, məktəb şəbəkəsinin genişlənməsi dərsliklərin, uşaq ədəbiyyatı və uşaq mətbuatının yaradılmasına tələbat yaratdı. Maariflənməni istiqbala açılan bir yol kimi qiymətləndirən zamanın tərəqqipərvərləri bu yolda bacardıqlarını əsirgəmirdilər - həm mətbəələr yaranır, həm dərsliklər tərtib olunur, həm də mətbuat genişlənirdi. Belə şəxslərdən biri Qafur Rəşad Mirzəzadə idi. Çox gənc yaşlarından müəllimlik fəaliyyətinə başlamış Qafur Rəşad Azərbaycan dilində ilk coğrafiya dərsliyinin müəllifidir. Bundan başqa “Rəhbəri-sərf” (Axundov Məhəmmədsadıqla birlikdə), “Hesab məsələləri” (Əbdülrəhman Tofiq Əfəndizadə ilə birlikdə) adlı dərsliklər də tərtib etmişdir. Uşaq mətbuatının yaranıb təşəkkül tapması işində bilavasitə iştirak edən Qafur Rəşad bu sahədə fəaliyyətinə “Dəbistan” jurnalından başlayıb. Sonra mətbuat tariximizdə üçüncü və daha uzun ömürlü uşaq jurnalı olan “Məktəb” jurnalının redaktoru olub (Məhəmmədhəsən Əfəndizadə ilə) və  eyni zamanda “Məktəb” mətbəəsinin əsasını qoyaraq Azərbaycanda uşaq ədəbiyyatının yaranması və  nəşrinin vüsət almasına  xidmət etmişdir.

1894-cü ildə anadan olmuş bu görkəmli şəxsiyyət 1943-cü ildə vəfat etmişdir.

Tədqiqatçı Nazim Nəsrəddinov belə yazır: “Qafur Rəşad Mirzəzadə haqqında müəyyən tədqiqat işləri aparılsa da, arxivlərdə hələ də vərəqlənməyən toz basmış materiallar çoxdur”. Biz də bu qeydə əsaslanaraq tədqiqatçılarımıza kiçik bir ədəbiyyat siyahısı təqdim etmək istərdik. Siyahıda 1920-ci ilə qədər olan ədəbiyyat öz əksini tapmışdır.

Ayineyi-millət. Oyanız, qardaşlar / müəllim Qafur Rəşad Mirzəzadə Şirvani. – Bakı : Orucov qardaşları mətbəəsi, 1908. – 32 s. – İsrafil Aydəmirov cənablarının ianəsi ilə təb olunub, məccanə paylanır.

Dövlətli sərçə və dişli siçan.- Bakı: Orucovların elektrik  mətbəəsi, 1916.- 13 s.

***Dərsliklər***

Qafqaz coğrafiyası : rəsmli və xəritəli. – Bakı : Orucov qardaşlarının elektrik mətbəəsi, 1910. – 117 s.

Rəhbəri-sərf : I çap / Axundov Məhəmmədsadıqla birlikdə.  - “Baku” qəzetəsinin buxariyyə mətbəəsi, 1910. – 66+1 s.

Hesab məsələləri / Əbdülrəhman Tofiq Əfəndizadə ilə birlikdə.– Bakı : Orucov qardaşlarının elektrik mətbəəsi, 1910. – 93 s.

Ümumi coğrafiya : İbtidai, rüşdü və edadi məktəblərdə tədris üçündür. I hissə. – Bakı : Orucov qardaşlarının elektrik mətbəəsi, 1912. – 109 s.

Ümumi coğrafiya : İbtidai, rüşdü və edadi məktəblərdə tədris üçündür. I hissə. – Bakı : Orucov qardaşlarının elektrik mətbəəsi, 1917. – 82 s.

Rəhbəri-sərf : II çap / Axundov Məhəmmədsadıq. – Bakı : “Baku” qəzetəsinin buxariyyə mətbəəsi, 1918. – 63 s.

***Dövri mətbuatda (uşaq mətbuatı)***

Mirzəzadə Qafurağa. Kimyagərlər: ruscadan tərcümə // Dəbistan. – 1907. – 4 iyun. - № 8. – S. 119-120.

Ğ.R. [Qafur Rəşad Mirzəzadə]. Çörək ağacı // Məktəb. – 1913. – 25 sentyabr. - № 13. - S. 198-199.

Ğ.R. [Qafur Rəşad Mirzəzadə]. Şimal hadisəsi // Məktəb. – 1913. – 12 oktyabr. - № 14. – S. 220-221.

Ğ.R. [Qafur Rəşad Mirzəzadə]. Xurma ağacı // Məktəb. – 1913. – 14 dekabr. - № 20. – S. 314-316.

Ğ.R. [Qafur Rəşad Mirzəzadə]. Milli matəm: İsmayıl bəy Qaspirinskinin vəfatı // Məktəb. – 1914. – 20 sentyabr. - № 13. – S. 195-197.

Q.R. [Qafur Rəşad Mirzəzadə]. Mövludi Nəbi: Peyğəmbərimiz Məhəmməd Əleyhissəlamın anadan olduğu gecə// Məktəb. – 1915. – 24 yanvar. - № 2. – S. 17-18.

Ğ.R. [Qafur Rəşad Mirzəzadə]. Tərcümeyi-əhval: Şəhabəddin Mərcani // Məktəb. - 1915.– 24 yanvar. - № 2. - S. 19-21.

Q.R.Tərcümeyi-əhval: Fərabi həzrətləri // Məktəb. – 1915. – 7 fevral. - № 3. – S. 36.

Ğ.R.Vətən məhəbbəti // Məktəb. – 1916. - 25 iyun. - № 7. - S.102-106. – Əvvəli ; 10 avqust. - № 8. - S. 122-125.- Axırı.

Məlumat-biblioqrafiya Şöbəsi: Əhmədova S.

Cəlilova L.